# Respublika fənn olimpiadalarının nəticələri barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

2018/2019-cu tədris ili üzrə həyata keçirilmiş məktəblilərin Respublika fənn olimpiadalarının nəticələrinin elan edilməsi məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2018/2019-cu tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (nəticələrin siyahısı əlavə olunur).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin çoxaldılıb aidiyyəti struktur qurum və bölmələrə, yerli təhsili idarəetmə orqanlarına çatdırılmasını, eyni zamanda "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini və Təhsil Nazirliyinin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*10 iyun 2019-cu il*